TÜRK DÖVLƏTLƏRİ PARLAMENT ASSAMBLEYASI

HÜQUQ MƏSƏLƏLƏRİ VƏ BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİSSİYASI

ON BİRİNCİ İCLAS

Bakı, 4 mart 2024-cü il

TÖVSİYƏ QƏRARI

"TÜRKPA ÜZV DÖVLƏTLƏRİNDƏ ELMİ VƏ TEXNOLOJİ İNKİŞAFDA PARLAMENTLƏRİN ROLU VƏ QANUNVERİCİLİK DƏSTƏYİ"

Parlament Assambleyası:

TÜRKPA üzv parlamentləri arasında çoxtərəfli institusional əməkdaşlığa kommunikasiya texnologiyaları və rəqəmsallaşmanın töhfələrini ***proqnozlaşdıraraq***;

Ölkələrin elmi və texnoloji inkişafında plan, məqsəd, hədəf və strategiyaların müəyyənləşdirilməsinə qanunvericilik orqanlarının təsir imkanlarından ***xəbərdar olaraq;***

TÜRKPA üzv olan ölkələrinin elmi və texnoloji inkişaf potensialının inteqrasiyasını ***məmnunluqla qarşılayaraq;***

Dünyada baş verən prosesləri yaxından izləyən və parlamentarilərə obyektiv informasiya dəstəyi verən Parlament Araşdırma Xidmətlərinin əhəmiyyətini ***vurğulayaraq;***

Araşdırma - təkmilləşdirmə və innovasiyanın sosial rifah və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün vacib olduğunu ***yadda saxlayaraq***; İstehsal vasitələrinin dəyişməsi baxımından Dördüncü Sənaye İnqilabı kimi xarakterizə edilən Sənaye 4.0 tərəfindən təqdim edilən Cəmiyyət 5.0 konsepsiyasını ***nəzərə alaraq;***

Yeni texnologiyaların və proseslərin mənimsənilməsi ideyası istiqamətində parlament infrastrukturunun və xidmətlərinin modernləşdirilməsini və rəqəmsal transformasiyasını ***dəstəkləyərək****;*

İnnovasiya mədəniyyətinin təşviqinin vacibliyinə və innovasiyaya tələbi artıracaq yeni siyasət vasitələrinin təsirlərinə ***inanaraq;***

Assambleya, TÜRKPA üzv parlamentlərinə aşağıdakıları ***tövsiyə edir:***

a) araşdırma - təkmilləşdirmə, innovasiya, rəqəmsallaşma və informasiya təhlükəsizliyi üzrə qanunvericilik bazasının *hazırlanmasını*, daha sonra TÜRKPA üzv ölkələri arasında qanunvericiliyin *uyğunlaşdırılması və yaxınlaşdırılmasını;*
b) kosmik sahibkarlıq, kosmik sənaye, kosmik mədənçilik, kosmosa çıxış və kosmik tədqiqatlar üzrə hüquqi tənzimləməni *həyata keçirmək* və qanunvericiliyin uyğunlaşdırılması üçün TÜRKPA üzv ölkələri arasında əməkdaşlığı *inkişaf etdirilməsini;*
c) yaşıl texnologiyalar adlanan ekoloji cəhətdən təmiz texnologiyalardan geniş istifadə üçün hüquqi tənzimləməni *qəbul etmək* və TÜRKPA üzv ölkələri arasında uyğunlaşmanı təmin etmək üçün birgə qanunvericilik işlərini *həyata keçirilməsini;*
d) maraqlı tərəflərin ortaq araşdırma - təkmilləşdirmə fəaliyyətini həyata keçirməyə həvəsləndirməyə yönəlmiş investisiya qoyuluşu proqramlarından səmərəli istifadə ilə milli və beynəlxalq qabaqcıl təcrübələrin nəzərdən *keçirilməsini*, müvafiq sənədlərin *toplanmasını* və TÜRKPA üzv ölkələrinin müvafiq sahədə qanunvericiliklərinin uyğunlaşdırılması üçün *təhlil edilməsini;*
e) TÜRKPA üzv parlamentlərində innovasiya və rəqəmsal sahələr üzrə fəaliyyət göstərən ixtisaslaşdırılmış komissiyaların rəhbərləri arasında koordinasiya iclaslarının *keçirilməsini*;
f) TÜRKPA üzv parlamentlərinin informasiya texnologiyaları (İKT) əsasında həyata keçirdikləri elektron parlament infrastrukturlarını təkmilləşdirmək məqsədilə Ortaq Ekspert Qruplarının iclaslarının *keçirilməsini;*
g) TÜRKPA üzv ölkələrinin elm və texnologiyaya görə cavabdeh olan qurumları tərəfindən seçiləcək gənclərə milli proqram təminatının əhəmiyyəti, erkən yaşlarda kodlaşdırma təhsili, rəqəmsal informasiya təhlükəsizliyi və effektiv sosial medianın idarə olunması kimi məsələlərdə ortaq sertifikatlı təlimlərin *təşkil edilməsini*;
h) TÜRKPA üzv dövlətlərində elmin inkişafına zəmin yaratmaq üçün beynəlxalq işçi qüvvəsi fəaliyyəti və əmək miqrasiyası, patent və əqli mülkiyyət hüquqları, ədalətli rəqabət mühitinin təmin edilməsi və tədqiqatçılar üçün lazımi maliyyə stimullarının təmin edilməsi və bu mövzuda birgə görüşlərin *keçirilməsini*;

i) Teknologiya və elmi inkişaf sahələrində tədqiqatçılara və tətbiq edicilərə kömək edəcək məlumatların *toplanmasını, yayılmasını* və müvafiq sahədə TÜRKPA üzv ölkələri arasında əməkdaşlıq prioritetlərinin *müəyyən edilməsini*;

j) innovasiya sahəsində əməkdaşlığın əlaqələndirilməsi və üzv dövlətlərin texnoloji yeniliklərlə tanış olması məqsədilə ortaq Texnologiya Mərkəzinin yaradılması;

k) TÜRKPA üzv parlamentlərində, süni intellektin (AI) istifadəsini təmin etmək məqsədi ilə iclas protokollarının hazırlanmasına istiqamətlənmiş ortaq infrastrukturun *yaradılmasını*;

l) TÜRKPA üzv ölkələrində süni intellekt, məlumat elmi və kibertəhlükəsizlik kimi mövzularda zəruri məşğulluğu təmin etmək üçün ümumi siyasəti *müəyyən edilməsi* və əməkdaşlığın hüquqi çərçivəsinin *yaradılmasını;*

m) birgə iclasların nəticəsinə əsasən məlumatların təhlükəsizliyinin təmin edilməsinə dair qaydaların tədqiq edilməsini;

n) böyük həcmli məlumat ilə süni intellekt başda olmaqla yeni texnologiyaların təmin etdiyi hərəkətverici qüvvənin elektron parlament araşdırmalarına ötürülməsi məqsədilə parlamentlərin informasiya texnologiyaları mütəxəssisləri arasında təcrübə mübadiləsi görüşlərinin *təşkil edilməsini.*